# Azərbaycan Kooperasiya Universiteti - 60
# Bakı Biznes və Kooperasiya Kolleci - 85







Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin, Azərbaycan Kooperasiya Universitetinin və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə Azərbaycan Kooperasiya Universitetinin 60 illik, onun tərkibində olan Bakı Biznes və Kooperasiya Kollecinin 85 illik yubileylərinə həsr edilmiş "Yeni reallıqlar şəraitində Azərbaycanın iqtisadi və sosial inkişafı: problemlər, çağırışlar, perspektivlər" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Beynəlxalq konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Ümummilli Lider Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi, torpaqlarımızın azadlığı, suverenliyi uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının əziz xatirəsinin yad olunması ilə açıq elan olunub.

Konfransda Azərbaycan Ağsaqqallar Şurasının sədri, Azərbaycan Kooperasiya Universitetinin rektoru, millət vəkili, professor Eldar Quliyev açılış nitqi ilə çıxış edərək qonaqları salamlayıb. Azərbaycan Kooperasiya Universitetinin 60 illik, onun tərkibində olan Bakı Biznes və Kooperasiya Kollecinin 85 illik yubileyləri münasibətilə təhsil müəssisələrinin kollektivlərini, tələbə və məzunlarını təbrik edib. Sonra natiq xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin keçdiyi uğurlu inkişaf yolundan, eləcə də elm və təhsilə ayırdıqları yüksək diqqət və qayğıdan ətraflı bəhs edib. Həmçinin Azərbaycan Kooperasiya Universitetinin və onun tərkibində olan Bakı Biznes və Kooperasiya Kollecinin elmin, təhsilin inkişafı istiqamətində həyata keçirdiyi fəaliyyətdən, görülən işlərdən hərtərəfli söz açıb.

Tədbirdə çıxış edən digər natiqlər də, o cümlədən Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, professor İsa Həbibbəyli, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov, Türkiyə Böyük Millət Məclisinin millət vəkili, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, Azərbaycan Kooperasiya Universitetinin fəxri professoru Şamil Ayrım, Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar, dünyaşöhrətli azərbaycanlı alim, Münxendəki Helmholtz Mərkəzinin professoru Məsud Əfəndiyev, Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan İqtisadçılar İttifaqının sədri, Milli Məclisin deputatı Ziyad Səmədzadə, Azərbaycan Kooperasiya Universitetinin beynəlxalq əlaqələr və təlim - tərbiyə işləri üzrə prorektoru professor Aygün Quliyeva və digərləri hər iki təhsil ocağının milli kadr hazırlığında, elm və təhsilin inkişafında, xalqımızın qədim tarixinin, mədəniyyətinin araşdırılmasında, ana dilimizin qorunub saxlanılmasında, vətənpərvərlik və azərbaycançılıq ideologiyasının təbliğində böyük rol oynadığını vurğulayıblar. Bu müqəddəs missiyanın gələcəkdə də uğurla davam etdiriləcəyinə əminliklərini bildiriblər.

Konfransda Azərbaycan Ağsaqqallar Şurası sədrinin birinci müavini, millət vəkili, akademik Əhliman Əmiraslanov, sədr müavinləri – millət vəkili, professor Eldar İbrahimov, millət vəkili Ağalar Vəliyev, professor Vahid Novruzov, İdarə Heyətinin üzvləri – AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, millət vəkili, akademik Ziyad Səmədzadə, professor Vaqif Şadlinski, həmçinin millət vəkilləri – Tənzilə Rüstəmxanlı və Ülviyyə Ağayeva və digər təhsil müəssisələrinin rəhbərləri, professor-müəllim və tələbə heyəti iştirak ediblər.







Sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı tərəfindən Azərbaycan Kooperasiya Universitetinin 60 illik, Bakı Biznes və Kooperasiya Kollecinin 85 illik yubileyləri münasibətilə təhsildə və əməkdə səmərəli fəaliyyətlərinə görə hər iki təhsil müəssisəsinin bir qrup əməkdaşlarına Fəxri fərmanlar təqdim olunub. Həmçinin konfransda Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar Azərbaycan Kooperasiya Universitetinin fəxri professoru adına layiq görülüb.

Konfrans fasilədən sonra 4 bölmə üzrə öz işini davam etdirib.

***Biz də "İqtisadiyyat" qəzetinin redaksiyası adından Azərbaycan Kooperasiya Universitetinin 60 illik, onun tərkibində olan Bakı Biznes və Kooperasiya Kollecinin 85 illik yubileyi münasibətilə rəhbərlik başda olmaqla bütün müəllim heyəti və tələbələri ürəkdən təbrik edirik. Onlara ölkəmizdə təhsilin inkişafı və möhkəmlənməsi naminə fəaliyyətlərində uğurlar arzulayırıq.***